# "Yaşıl gələcəyə" fundamental körpü



Oqtay QASIMOV,
politoloq.

**Bakı Enerji Forumu beynəlxalq miqyasda öz nüfuzunu təsdiqləmiş strateji platformaya çevrilib. Bu forumda dünyanın aparıcı enerji şirkətləri, nüfuzlu beynəlxalq qurumlar və müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələri iştirak edirlər. Burada enerji sahəsində qlobal çağırışlar, strateji əməkdaşlıq imkanları və yeni texnoloji həllər ətrafında geniş müzakirələr aparılır.**

Azərbaycan uzun illərdir enerji hasilatında və ixracında mühüm mövqeyə malik ölkədir. Son illərdə isə "yaşıl enerji" keçidi məsələsi dövlət siyasətinin prioritetinə çevrilib. Bu kontekstdə Bakı Enerji Forumu ölkəmizin atdığı praktiki addımların və strateji vizyonunun beynəlxalq auditoriyaya çatdırılması baxımından mühüm rol oynayır. Azərbaycan həm ənənəvi enerji istehsalçısı olaraq, həm də bərpaolunan enerji keçidini sürətlə reallaşdıran ölkə kimi qabaqcıl mövqeyə çıxarır. Forum eyni zamanda, Azərbaycanın reallaşdırdığı "yaşıl enerji" layihələrinin, xüsusən də Xəzər dənizində planlaşdırılan külək enerjisi parklarının və beynəlxalq enerji daşıyıcı xətlərinin təbliğ olunması üçün ideal platformadır. Tədbirdə iştirakçıların sayı, onların peşəkar tərkibi və beynəlxalq çəkisi forumun əhəmiyyətini daha da artırır.

Xüsusi vurğulanmalı məqamlardan biri də odur ki, bu forumun keçirildiyi dövrdə ABŞ, Böyük Britaniya və digər aparıcı dövlətlərin rəhbər nümayəndələri tədbirə rəsmi müraciətlər ünvanlayır, bu da forumun qlobal səviyyədə qəbul olunduğunu sübut edir.

Bütün bunlar belə deməyə əsas verir ki, Bakı Enerji Forumu təkcə Azərbaycanın milli maraqları baxımından deyil, həm də regional və qlobal enerji gündəliyinin formalaşdırılması üçün unikal və strateji əhəmiyyətli platformadır. ■

Respublika.- 2025.- 4 iyun (№115).- S.7.